# Stolüstü tennis üzrə rayon turniri

***Qəbələ Rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə noyabrın 8-də Olimpiya İdman Kompleksində 9 Noyabr - Dövlət Bayrağı gününə həsr edilmiş stolüstü tennis üzrə turnir keçirilib.***

Kişilər arasında keçirilən turnirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli Sərəncamına əsasən, hər il 9 noyabrın Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edildiyini bildirib.

O, belə turnirlərin keçirilməsinin rayonda bədən tərbiyəsi və idmanın inkişafına, onun kütləviliyinə stimul verməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkilinə nail olunması, eləcə də olimpiya idman kompleksindən səmərəli istifadə edilməsi sahəsində müstəsna əhəmiyyətə



malik olduğunu yarış iştirakçılarının nəzərinə çatdırıb.

Turnirdə rayonun idarə, müəssisə və idman kollektivlərini təmsil edən 20-dək idmançı gərgin oyun nümayiş etdirib.

Yarışın nəticəsinə əsasən Cəlil Qismətov I, Orxan Əliyev II və Rübail Qarayev III yerə layiq görülüblər.

Qaliblərə rayon gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri təqdim edilib.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Ümuyev (foto).**

# Əvəlik bitkisi haqqında nə bilirik?

Əvəlik Yer kürəsinin hər yerində yayılmışdır. Botaniki xüsusiyyətlərinə görə qırxbuğum fəsiləsinə aid olan çoxillik ot bitkisidir. Toxum və kök pöhrələri ilə çoxalır. Toxumları yazda və payızda səpilir və ikinci ildən başlayaraq qida üçün istifadə olunur. Əvəlik bitkisi çiçəkləməmişdən əvvəl, may-iyun aylarında yığılır, saç kimi hörülür, qurudularaq qışa tədarük edilir. Qurudulmuş əvəlikdən qış vaxtı müxtəlif xörəklər hazırlanır.

Hamının tanıdığı əvəlikli umac, əvəlikli sıyıq və sair xörəklər dadlı qida olmaqla yanaşı, müalicəvi əhəmiyyətə malikdir.

Əvəlikli sıyıq: Üç stəkan düyüyə bir litr su əlavə edilir. Su qaynamağa yaxın əvəlik ovxalanıb tökülür. Su qaynayıb azalana yaxın xörək oddan götürülür, duz əlavə edilir. Hazırlanmış əvəlikli sıyıq mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur.

Əvəlikli umac: Əvəlikli umac



unla hazırlanır. Umac üçün müəyyən miqdarda un götürülüb ələkdən keçirilir. Qazana su tökülüb qaynadılır. Qaynar suyun içərisinə 100 qrama qədər ovxalanmış quru əvəlik tökülərək qarışdırılır. Bir-iki buğum qaynadıqdan sonra onun üzərinə un əlavə edilir. Beləliklə, 5-10 dəqiqədən sonra əvəlikli umac hazır olur. Bu xörək soyuqdəymənin müalicəsinə çox kömək edir.

Əvəlik eyni zamanda dovğaya, qutaba, şorbaya və sair xörəklərə qatılır. Yarpaqlarında C vitamini vardır. Kökləri aşı maddəsi ilə zəngindir. Onlardan boyaq hazırlamaq üçün də istifadə olunur.

Əvəliyin yerüstü hissəsindən hazırlanan dəmləməsi daxili qanaxmalarda, yaşıl kütləsi sarğı kimi dəri xəstəliklərində, bədxassəli şişlərin müalicəsində, habelə dəridə əmələ gələn göbələk xəstəliklərində, irinli çibanların müalicəsində, şirəsindən isə qızdırma, sinqa, qusma, revmatizmdə istifadə edilir. Yarpaqlarından vitamin iksirləri hazırlanır.

Qurudulmuş əvəliyi xırda-xırda doğrayıb bişirərək, onu gündə bir dəfə sulu-sulu yeməklə öd kisəsi xəstəliklərini müalicə etmək olar.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

**2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir**

**İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İdman xəbərləri

## «Qəbələ» ilə “Səbail”in oyunu heç-heçə bitib



Topaz Premyer Liqasında yaranan fasilə dövründə hazırlıqlarını Bakıda gerçəkləşdirən “Qəbələ” növbəti yoxlama oyununu keçirib. “Səbail”lə qarşılaşma Bakı Olimpiya Stadionunun köməkçi meydanında baş tutub.

Qarşılıqlı hücumlarla keçən oyunun birinci hissəsində komandamız rəqib qapısına yol tapıb.

İkinci hissədə qol sevincini “Səbail” yaşayıb və oyun 1:1 hesabı ilə başa çatıb.

## Avropa çempionatında bürünc medal

Montoneqronun paytaxtı Podqoritsa şəhərində cüdo üzrə U-23 Avropa birinciliyinə start verilib. 60 kq çəki dərəcəsində çıxış edən “Qəbələ” İdman Klubunun təmsilçisi Kəramət Hüseynov keçirdiyi 4 görüşdən üçündə qalib gələrək yarışı bürünc medalla başa vurub.

## Nokautla qələbə



“Qəbələ” İdman Klubunun kikboksçusu Pərviz Abdullayev növbəti qələbəsini qazanıb. İdmançımız ABŞ-ın Los Anceles şəhərində keçirilən ACB KB-12 turniri çərçivəsində qüvvəsini sınayıb. 77 kq çəki dərəcəsində çıxış edən Pərviz Abdullayev Hollandiya əsilli ABŞ idmançısı Qodvin Afriye ilə döyüşüb. Pərviz üç raund davam etməli olan qarşılaşmanı vaxtından əvvəl bitirib. O, sonuncu hissədə rəqibini texniki nokautla məğlub edib.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tövlə kənd sakini **Gülməmmədova Səmayə Əziz qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 028 F nömrəli (kod 40617028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **Səfərəliyev Nizami Əziz oğluna** verilmiş JN seriyalı 344 G nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **Səfərəliyev Nizami Əziz oğluna** verilmiş JN seriyalı 344 A nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər sakini **Korkmaz Günay Buxsay qızına** məxsus 99 XF 280 dövlət nömrə nişanlı «Honda CİVİC» markalı avtomobilə verilmiş AC 452290 nömrəli **texniki pasport** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı
**ŞÖLƏ XANIMIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı
**ŞÖLƏ XANIMIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Ağsaqqallar Şurası rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı
**ŞÖLƏ XANIMIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səhiyyə işçiləri rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı
**ŞÖLƏ XANIMIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rayon statistika idarəsinin kollektivi iş yoldaşları **Dilşad Səmədovaya** həyat yoldaşı
**BƏHRAMIN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1900